وارلیق
VARLIQ
Dil, ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2025: 42(4), ss.101-103
Telif Haqqı©Varlıq Dergisi

Dr. Cavad Heyət, Qədirbilən Ziyalı

Hikmət XUDİYEV [1]



Ötən əsrin son illərində xidməti vəzifəmlə əlaqədar Azərbaycanın hər iki tayında yaşayan Azərbaycan türklərinin adını qürurla çəkə biləcəyi və bütün dünyaya öyünclə nişan verə biləcəyi bir şəxsiyyəti - professor Cavad Heyəti tanımaq, onunla ünsiyyətdə olmaq şərəfi mənə də nəsib olmuşdu.

Birinci Qarabağ müharibəsində yaralanmış vətənpərvər övladlarımıza göstərdiyi qayğılarla doktor Cavad Heyət Azərbaycan xalqının qəlbində taxt qurmuşdu. Onun 1993-cü ildə böyük ürək ağrısı ilə Türkiyənin sabiq prezidenti cənab Süleyman Dəmirələ yazdığı açıq məktubu ilə hələ sağlığında ikən Türk dünyasında öz abidəsini ucaltmışdı.

Doktor Cavad Heyət həm də qədirbilən, kiçik bir xidmətə yüksək dəyər verən zəngin mənəviyyatlı şəxsiyyət kimi də mənim qəlbimdə iz buraxıb…

---

[1] Əməkdar journalist, tariz üzrə fəlsəfə doktoru, istefada olan polkovnik, 1-ci Qarabağ müharibəsinin veteran.

…Hər bir “paqon əhli” üçün növbəti rütbə almaq ömrün ən önəmli və yaddaqalan anlarındandır. Mənim üçün də belə olub. Vaxtından əvvəl polis polkovnik-leytenantı rütbəsi almağımın isə maraqlı bir tarixçəsi var. 1994-cü ildə DİN-in hospitalının yubileyi ilə əlaqədar keçirilən, neçə-neçə nazirin və yüksəktəbəqəli məmurların, görkəmli sənət adamlarının qatıldığı tədbirdə dünya şöhrətli cərrah-alim, türkoloq, ictimai xadim, İranda ana dilimizdə çıxan "Varlıq" jurnalının yaradıcısı və baş redaktoru olmuş doktor Cavad Heyət çıxış edərkən sükut və dərin hörmətlə hamı Türkün bu böyük oğlunu dinləyirdi. Professor Cavad Heyət çıxışı zamanı tribunadan qəfil ayrılıb ön cərgədə oturmuş çoxhörmətli nazirimiz Ramil Usubova yaxınlaşdı və qoltuq cibindən müəllifi olduğum “Döyüşən şəfa ocağı” kitabını çıxararaq Ramil müəllimə və digər nazirlərə göstərərək dedi:



- Bu kitab İranda, Almaniyada Qarabağ həqiqətlərinin yayımasında, yaralı polis əməkdaşlarının müalicəsinə xaricdə

yardım edənlərin əməyinin təbliğ olunmasında, başqalarını da bu nəcib içə təşviq edilməsində mühüm rol oynayır. Müəllifi mükafatlandırılmasını sizdən xahiş edirəm…

…Mən o an şokda idim. Sonradan çoxlarını inandıra bilmirdim ki, professor Cavad Heyətin bu çıxışı əvvəlcədən planlaşdırılmayıb, ondan kiminsə mükafatlandırılması üçün heç bir xahiş olmayıb…

Beləcə, professor Cavad Heyətin bu xahişindən sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi olaraq mən vaxtından əvvəl mükafat qaydasında polis-polkovnik-leytenantı rütbəsini aldım.

Məkanın cənnət olsun, yüzlərlə Vətən sevdalı yaralımıza şəfa verən Azərbaycan sevdalı böyük Türk!